Oktyabrın 17-də təhsil naziri Misir Mərdanov Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinin İctimaiyyətlə əlaqə şöbəsinin müdiri Terri Devidsonla görüşüb.

Görüşdə ABŞ Dövlət Departamenti tərəfindən təşkil olunan “Fulbrayt” proqramı çərçivəsində qeyd olunan ölkədə təhsil alacaq azərbaycanlı gənclər barədə söhbət aparılıb.

Terri Devidson bildirib ki, “Fulbrayt” proqramı çərçivəsində 63 azərbaycanlı gənc ərizə ilə səfirliyə müraciət edib, son mərhələ üçün 10 nəfər seçilib. Onlar ABŞ-ın ən yüksək universitetlərində təhsil almağa göndəriləcək, 5 il ərzində Amerikada təhsil aldıqdan sonra Azərbaycana qayıdacaqlar.

Terri Devidson eyni zamanda qeyd olunan proqram çərçivəsində 2 amerikalı alimin, 3 ingilis dili üzrə mütəxəssisin Azərbaycanda çalışdığını, amerikalı tələbələrin də tədqiqat aparmaq üçün ölkəmizə gəldiklərini bildirib.

Misir Mərdanov “Fulbrayt” proqramının azərbaycanlı gənclər üçün əhəmiyyətindən danışıb. Nazir bildirib ki, Azərbaycan dövləti öz vətəndaşlarının yüksək təhsil almasına daim çalışır. Misir Mərdanov eyni zamanda orta məktəblərdə ingilis dilinin daha geniş öyrənilməsi məsələsinə toxunaraq bildirib ki, gələcəkdə bu işi daha da təkmilləşdirmək üçün birgə görüşlərin keçirilməsi, yeni layihələrin hazırlanması labüddür.

Görüşdə oktyabrın 24-də Bakıda keçiriləcək təhsil sərgisi barədə də danışılıb. Qeyd olunub ki, bu sərgidə ABŞ-ın 19 universitetinin fəaliyyəti barədə məlumat veriləcək.